Xaqani küç., 21
AZ 1000, Bakı, Azərbaycan
Tel (+99412) 598 08 00
Faks (+99412) 598 08 80
E-mail info@bankrespublika.az
http://www.bankrespublika.az

***Səhmdarların Növbədənkənar Yığıncağının keçirilməsi haqqında bildiriş***

"Banklar haqqında" Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikasının Mülki Məcəlləsini rəhbər tutaraq "Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti nəzərinizə çatdırır ki, 24 İyul 2026-cı il tarixdə saat 10:00-da, Bakı şəhəri, Xaqani küçəsi 21 ünvanında yerləşən bankın Baş Ofisində Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin inkişaf strategiyası və bununla əlaqədar kapital strukturuna dair müzakirələrin və müvafiq qərarın qəbul edilməsi.
4. "Bakı Sığorta" ASC və "Respublika İnvest" MMC-nin fəaliyyətinə dair müzakirələrin və müvafiq qərarın qəbul edilməsi.
5. "Bank Respublika" ASC tərəfindən imtiyazlı səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılmasının təsdiq edilməsi haqqında.
6. Nizamnamə kapitalının artırılması ilə əlaqədar "Bank Respublika" ASC-nin Nizamnaməsinə müvafiq dəyişikliyin təsdiq edilməsi haqqında.
7. "Bank Respublika ASC-nin Mükafatlandırma Siyasətinin təsdiq edilməsi haqqında.

Qeyd edək ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən Siz Ümumi Yığıncaqda iştirak hüququnuzu bilavasitə özünüz və ya nümayəndəniz vasitəsilə həyata keçirə bilərsiniz.

Yığıncaqda özünüz iştirak edəcəyiniz halda, Siz qeydiyyat üçün şəxsiyyətinizi təsdiq edən sənədi təqdim etməlisiniz. Yığıncaqda nümayəndəniz iştirak edəcəksə, qeydiyyat üçün onun tərəfindən adına qanunvericilikdə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir.

Yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə materiallarla 16.07.2026-ci il tarixdən 22.07.2026-ci il tarixədək, şənbə və bazar günləri istisna olmaqla, saat $10^{00}$-dan $12^{00}$-dək yuxarıda qeyd olunan ünvanda, şəxsiyyəti təsdiq edən sənədi təqdim etməklə tanış ola bilərsiniz. Nümayəndə tərəfindən əlavə olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir. Zərurət yarandığı halda, bütün müvafiq materiallar eletron poçt vasitəsilə Sizə göndərilə bilər.

***Hörmətlə,***

***Elnur Həsənov***
***İdarə Heyətinin Sədrinin müavini***

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti Bank Respublika Joint-Stock Company